Azadlıq Radiosu

View the original article

DÜNYA XƏBƏRLƏRİ

# Rusiya Kiyev, Dnepr və Krivoy Roqa zərbələr endirib, ölənlər var

Sentyabr 22, 2026




Rusiyanın Kiyevə hücumu zamanı zədələnən yaşayış binası

Sentyabrın 22-nə keçən gecə Rusiya qoşunları Ukraynaya ballistik, gəmi əleyhinə və qanadlı raketlərlə və dronlarla hücum edib. Ukrayna zərbələrin əsasən Dnepropetrovsk, Kirovoqrad və Poltava vilayətlərinə yönəldiyini bildirib.

Son məlumatlara görə, Dnepr şəhərində dörd nəfər həlak olub, altı nəfər yaralanıb. Dnepropetrovsk Vilayət Hərbi Administrasiyasının rəhbəri **Aleksandr Qanja** anbarlara və bir müəssisəyə ziyan dəydiyini bildirib. Krivoy Roq və Pavloqradda da müəssisələr zərər görüb.



**#Дніпропетровщина: через російські масовані атаки ракетами, БпЛА та артилерією загинули 3 людей, ще 6 постраждали**

Під ударом перебували 4 райони області.

▪️ У Дніпрі виникли масштабні пожежі у складських приміщеннях, також пошкоджене підприємство. Загинули 3 людей. Ще 6 постраждали.

▪️ У Кривому Розі та Павлограді пошкоджені підприємства.

▪️ На Нікопольщині ворог атакував Марганецьку та Покровську громади.

Надзвичайники працюють на місцях ударів та ліквідовують наслідки. До робіт залучені понад 150 рятувальників та 50 одиниць техніки ДСНС.

*Сайт* • *Fb* • *X* • *IG* • *YT* • *TT*

😱 67 ❤️ 3 😱 1

Kiyevdə Rusiyanın hücumu nəticəsində anbarlarda yanğın baş verib. Dnepr rayonunda beşmərtəbəli yaşayış binasına ziyan dəyib, sakinlər təxliyə olunub.

Poltava vilayətində sənaye müəssisəsi və kritik infrastruktur obyekti hədəf götürülüb.

**Rusiya Müdafiə Nazirliyi** Kiyev şəhərində, Dnepropetrovsk, Poltava və Odessa vilayətlərində metallurgiya və kimya sənayesi, yanacaq-energetika və hərbi-sənaye komplekslərinə aid müəssisələrin, liman infrastrukturu obyektlərinin, eləcə də dəniz gəmilərinin vurulduğunu bildirib.

Polşa sentyabrın 21-də axşam saatlarında Rusiyanın hücumu ilə əlaqədar qırıcı təyyarələrini havaya qaldırıb. Latviyada yerləşən NATO qırıcıları da havaya qalxıb. Bu ölkələrin hava məkanının pozulması barədə məlumat verilməyib. Sonradan həyəcan siqnalı ləğv edilib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur